n etimadı
ultdu!



# Bakı Qran prisi başa çatsa da, təəssüratlar bitmir




**İnamla demək olar ki, avtoidman "kraliçası" – Formula 1-in Bakı səhifələri günlərdir ki, dünyanın idman ictimaiyyətinin maraq dairəsindədir. İyunun 6-da özünün finiş xəttinə çatan Azərbaycan Qran prisi baxımlı olmasına görə Formula 1 tarixində uzun illərdən bəri ən yaxşı sürət yarışı kimi dəyərləndirilir. "Sports.com", "izvestiya.ru" və digər beynəlxalq xəbər saytlarında bu kimi fikirlər geniş yer almışdır.**

Həlledici mərhələdə beş dairədən sonra şəriksiz lider olan "Red Bull"lu pilot Maks Ferstappenin bəxtinin gətirməməsi – şini partladığına görə bolidini səddə çırpması və onun komanda yoldaşı Serxio Peresin etapı birinci başa vurması, həmçinin Luis Hemiltonun restartda səhv etməsi və rusiyalı Nikita Mazepindən sonra 15-ci yerlə kifayətlənməsi idman gündəmini məşğul edən əsas mövzulardır.

Saytlar yazır ki, COVID-19 pandemiyası mülahizələrinə görə seyrçilər yarışı tor hasarlar arxasından izləməli olsalar da, gərgin mübarizə anlarının şahidi ola biliblər. Pilotların qəfil forsajları, bolid mühərriklərinin güclü "hayqırtıları", riskli ötmə anları, uğurlu-uğursuz dönmələr ecazkar təsir bağışlayırdı. "Ferrari", "Mercedes", "McLaren" komandalarının zəif təsir bağışlamaları da dünyanın onlayn mətbuatında əsaflı müzakirələrə səbəb olub.

"Keterhem" komandasının keçmiş kommersiya direktoru Oksana Kosaçenko hazırda tanınmış idman şərhçisi hesab edilir. O, müxbirlərə müsahibəsində qeyd edib ki, Azərbaycan Qran prisinə xas olan dramatizm və intriqa Formula 1 sinfinə aid maşınlarda avtoyürüşlərin təşkilatçılarının və bu çempionatın rəhbərliyinin maraqlarına uyğun idi. O.Kosaçenka həmçinin qalibiyyətə iddiaçı olan Mazepinlə Şumaxerin fərdi keyfiyyətlərini maraqlı şəkildə müqayisə edib. Birinin pilotlama üslubuna, digərinin avtomobilinin sıxma gücü, idarəetmə və dönmə üstünlüyünə diqqəti çəkib.

**Oksana Kosaçenko:**



– Mən bir vaxtlar rus yürüşçü Vitali Petrovun meneceri olmuşam. Yaxşı bilirəm ki, Formula 1-də iki eyni maşın olmur, hamısı yetərincə fərdidir. Məncə, Nikita elə Mikin səviyyəsindədir. Yaqin ki, iki həftədən sonra Fransada keçiriləcək növbəti mərhələ yarışı Mazepin üçün daha rahat olacaq. Bakı turu isə özünün gözəl təşkili, burada yaradılmış rahat şərait baxımından yadda qalacaq. Elə Xəzərsahili şəhərin havası da sanki özünün əlverişli olması ilə bir növ iştirakçılara "qonaqpərvərlik" göstərirdi. Maraqlı hadisələrin çox olması həmişə xoşagələndir. Yürüşlərin hamısı bir-birindən cazibədar idi.

Uzun müddət ərzində ən yaxşı yürüş. Yarışda dördqat dünya çempionu, almaniyalı pilot Sebastian Fettelin "Aston Martin"in heyətində çıxışı belə dəyərləndirilir. Onun bu komandada adaptasiya çətinliklərini uğurla keçdiyi söylənilir: əvvəlcə may ayının sonunda Monakoda yaxşı yürüş edərək 5-ci yerə çıxa bilib. Bakıda isə daha böyük uğur qazanaraq, liderlər qrupuna daxil olub və yekun podiumda 2-ci olub.

**Sebastian Fettel:**



– Azərbaycan Qran prisində yaxşı start götürdüm. Məni iki dəfə dalbadal günün sürücüsü adlandırdılar. Şənbə günü 15-ci döngədə yüngül səhv etsəm də, sonradan özümü toparlaya bildim. Son göstəricim 1:45.138 oldu. Mənim nəticəm "Aston Martin"ə Formula 1-də ilk podium qazandırması ilə yadda qalacaq. Bakı bizim üçün çox uğurlu şəhər oldu.

"McLaren" komandasının pilotu Lando Norris də yarışın nəticəsindən razı qaldığını söyləyib.

**Lando Norris:**



– İlk dövrədə üzücü sınaq olsa da, yekunda yürüş xeyli yaxşı alındı. Ümumiyyətlə, yarış ağır keçdi. Rəqibləri ötmək gözlənildiyindən çətin idi. Bununla belə, mən finişə 5-ci çatmağı bacardım, komandamıza vacib xallar qazandırdım. Əlbəttə, Sebastianın və ya Pyerin yerində olmaq daha gözəl olardı, amma, məncə, 5-ci yer bizim bu gün ümid bəslədiyimiz maksimum idi. "Alpha Tauri" də, "Ferrari" də həftəsonu çox sürətli idilər, biz yalnız mümkün itkiləri minimuma endirməyə çalışırdıq. Yenə də Azərbaycan Qran prisini uğurlu hesab edirəm.

"Mersedes"in pilotu Valtteri Bottas isə son nəticədə uğursuzluğa düçar olub. Bu yarışda müəyyən çətinliklə qarşılaşdığını etiraf edib.

**Valtteri Bottas:**



– Həftəsonu bəxtimin gətirməməsi yarışın mənim üçün əsas yekunu oldu. İki günün hissiyyatları eyni idi. Sona qədər nə baş verdiyini anlaya bilmədim. Heç olmasa, rəqiblərimlə eyni tempdə yarışmaq çox çətin oldu. Xüsusilə də "Aston Martin" komandasının maşınları aşkar sürətli idi. Düşünürəm ki, bu mövsümdə bizim maşınların ən zəif cəhəti şinlərin ifrat qızması oldu. Restartda özümü sanki "əl-ayağa dolaşan ördək" kimi hiss edirdim – rəqiblərin maşınları elə hey sağdan-soldan ötüb keçirdi. Nikbinlik üçün əsas azdır. Ümumiyyətlə, Bakı Şəhər Halqası kifayət qədər nadir trekdir. Biz bundan sonra hər şeyi götür-qoy etməli və problemimizin yaranma səbəblərini aydınlaşdırmalıyıq. Şəxsən mən bu uğursuzluğu tez unutmalı və yoluma davam etməliyəm.

"Ferrari"nin pilotu Şarl Lekler də Azərbaycan Qran-prisi barədə fikirlərini bölüşüb.

**Şarl Lekler:**



– Pouldan start götürəndə lider idim, sonra üçüncü düz dövrənin əvvəlində Hamilton məni keçdi. Hər şey yaxşı başlanmışdı, normal idi. Amma sonra çətin vəziyyət yarandı, bunu televizor ekranından izləyəndə gördüm. 15-ci dövrədə çox vaxt itirmiş oldum. Daha sonra Maks da məni ötdü. Beləcə, geriləmdim. Eybi yox, hələ qarşıda növbəti oyunlar var...

Beləcə, artıq tarixə çevrilən Formula 1 avtoyürüşləri Azərbaycanın mötəbər beynəlxalq idman yarışlarını layiqincə keçirməyə qadir olduğunu bir daha nümayiş etdirdi.

***Hazırladı:***
***Əli NƏCƏFXANLI, "Xalq qəzeti"***